## Dövlət Statistika Komitəsində beynəlxalq ekspertlə görüş keçirilib



25 dekabr 2015-ci il tarixində Dövlət Statistika Komitəsində beynəlxalq ekspert - layihələr üzrə idarəetmə direktoru və aparıcı məsləhətçi cənab Sanjay Suda ilə görüş keçirilmişdir.

Tədbirdə Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov, aparat rəhbəri Vahab Məmmədov və Komitənin nümayəndələri iştirak etmişlər.

Görüşün əsas məqsədi Dövlət Statistika Komitəsi ilə Dünya Bankı arasında əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasında statistika sisteminin qiymətləndirilməsi və prioritet inkişaf istiqamətlərinin müəyyənləşdirilməsindən ibarət olmuşdur.

Görüşdə statistika sahəsində keyfiyyətin idarə edilməsi və metaməlumatlar sistemlərinin təkmilləşdirilməsi, statistik məlumatların yeni alət və üsullarla işlənməsi və təhlili, statistika sahəsində həyata keçirilən islahatlar çərçivəsində statistika sisteminin təşkilati strukturuna yenidən baxılmasının məqsədi və perspektivləri müzakirə olunmuşdur.



